# Ümummilli Lider uşaqların himayədarı idi...

*Hər bir sivil cəmiyyətdə insan hüquqlarına hörmət, əslində, saf, təmiz, sevimli varlıqlara - uşaqlara münasibətdən başlayır. Belə ki, uşaqlar fiziki və psixoloji cəhətdən müdafiəsiz olduqlarından onların xüsusi qayğıya və münasibətə böyük ehtiyacı var. Bir körpənin dünyaya gəlişi təkcə onun ata-anasına deyil, cəmiyyətə ən şirin töhfədir. Azərbaycan ailəsində yaxşı nə varsa, hamısı uşaq üçün, onun xoşbəxt gələcəyi üçündür... Azərbaycanda uşaq siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu öndərin yaratdığı və nəsillər üçün miras qoyduğu ənənələr daha da genişlənməkdədir. Cəmiyyətin ən həssas və kövrək zümrəsi olan uşaqlar Azərbaycanda daim yüksək qayğı, diqqət və nəvazişlə əhatə olunub.*



Dövlətimiz uşaqların sağlam, gümrah, vətənpərvər böyümələri üçün hər cür maksimum şərait yaratmış, necə deyərlər, hər şeyin yaxşısını uşaqlara bəxş edib. Uşaq hüquqlarının qorunması, uşaqların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı genişmiqyaslı işlər görülür, müvafiq qanunvericilik aktları qəbul edilir. Dahi şəxsiyyət Heydər Əliyev deyib: "Uşaqlar bizim gələcəyimizdir, bizim sevincimiz, xoşbəxtliyimiz, cəmiyyətin gələcəyidir. Ona görə də hər bir insanpərvər cəmiyyətdə uşaqlara daimi xüsusi qayğı, xüsusi diqqət göstərilibdir". Fenomen şəxsiyyət Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra, bütün sahələrdə olduğu kimi, uşaq siyasətində də dövrün tələblərinə uyğun siyasət aparılıb. Azərbaycan dövləti 1994-cü ildə BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasına qoşulub. Bu Konvensiyaya qoşulmaq ölkəmizin uşaq hüquqlarına yüksək dəyər verdiyinin, uşaqların ehtiyaclarının hərtərəfli təmin olunmasında görülən işlərin təcəssümü idi. Bununla da uzaqgörən və müdrik şəxsiyyət Heydər Əliyev xalqımızın sabahını - gənc nəsli yaşatmaq, uşaqlar arasında həyat səviyyəsini yaxşılaşdırmaq üçün xarici ölkələrin diqqətini respublikamıza yönəlib. Həmişə hər bir azərbaycanlı uşağın yüksək sosial-mənəvi mühitdə böyüməsinə çalışıb. O, ölkəmizdə dövlətin hüquq sisteminin əsasını təşkil edən Konstitusiya və qanunlarla uşaq hüquqlarına etibarlı təminat mexanizmləri yaradıb.

Uşaqların Beynəlxalq televiziya və radio günü münasibətilə keçirilən ənənəvi bayramında iştirak edən ulu öndərimiz Heydər Əliyev deyib: "Artıq biz ictimai-siyasi cəhətdən çox sabit bir Azərbaycan yaratmışıq. İnsanlar rahat yaşasınlar və biz bunu, sabitliyi daimi edəcəyik... Əmin olun ki, siz bizim rastlaşdığımız çətinliklərlə rastlaşmayacaqsınız. Ancaq bu, sizə imkan verəcək ki, bizim başladığımız işləri daha da uğurla həyata keçirəsiniz. Siz bizim ümidimiz, gələcəyimizsiniz". Ümummilli lider nankor erməni şovinistlərinin havadarlarının köməyi ilə torpaqlarımızın 20 faizini işğal etməsi nəticəsində didərgin düşmüş valideynlərin və uşaqların taleyini bir an belə unutmayıb, vaxt taparaq həmişə onları ziyarət edib, problemlərinin həlli istiqamətində müvafiq tədbirlər görüb. Məhz bu diqqət və qayğının nəticəsi idi ki, uşaqlar ulu öndər Heydər Əliyevlə hər bir görüşdən sonsuz coşqu, böyük həyat eşqi alırdılar. Bu səmimi görüşlər hər bir uşağın yaddaşında əbədi iz qoyub. Ulu öndərin qanunvericilik təşəbbüsü əsasında 1998-ci ildə Milli Məclisdə "Uşaq hüquqları haqqında", 1999-cu ildə "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunlar qəbul edilib və icrası yüksək səviyyədə təmin olunub.

Ümummilli lider öz çıxışlarında dəfələrlə vurğulayırdı ki, müstəqil dövlətimizdə uşaqların yüksək mənəvi-əxlaqi mühitdə, milli dəyərlər əsasında kamil tərbiyə alaraq layiqli şəxsiyyət kimi yetkinləşməsi olduqca mühüm əhəmiyyət kəsb edir. Dahi şəxsiyyət tez-tez uşaqlar üçün təşkil edilən tədbirlərdə, bayram şənliklərində iştirak edir, onlarla ünsiyyətdə olurdu. Uşaqlar da ulu öndərlə hər bir görüşdən böyük ilham və zövq alırdılar. Xüsusilə, Heydər Əliyevin 11 dekabr 1994-cü ildə uşaqlarla görüşü əbədi yaddaşlarda həkk olunub. Fenomen şəxsiyyət böyük uzaqgörənliyi ilə qeyd edib: "Bu bir reallıqdır ki, Azərbaycan Respublikasında uşaqlar respublikamızın son illərdə düşdüyü ağır, bəlalı, əzab-əziyyətli günlər içində yaşayaraq, eyni zamanda öz valideynlərinin, onlara qayğı göstərən insanların, təşkilatların, xeyriyyə cəmiyyətlərinin köməyi ilə dərs keçirlər, tərbiyə alırlar, böyüyürlər və inkişaf edirlər. Mən əminəm ki, bu ağır, çətin dövrdə dünyaya gəlib böyüyən uşaqlar cəsarətli, mətin, vətənpərvər olacaqlar. Azərbaycanın xoşbəxt gələcəyi naminə həm təhsil alıb böyüyəcəklər, həm də gələcəkdə cəmiyyətdə öz yerlərini tutacaqlar. Azərbaycanın gəncləri, uşaqları ölkəmizin, xalqımızın milli sərvətidir, gələcəyidir və ümididir. Biz xoşbəxtik, ona görə ki, Azərbaycan xalqının əsrlər boyu böyük insanları, istedadlı adamları olubdur. Bu gün bu insanlar, istedadlı adamlar Azərbaycan xalqının müstəqilliyi uğrunda mübarizə aparanlardır, respublikamızın müstəqilliyini təmin edən adamlardır. Azərbaycanın böyük tarixi keçmişi olduğu kimi, böyük də gələcəyi vardır. Azərbaycanın keçmişində və son illərində nə qədər əzab-əziyyətli mərhələlər, dövrlər olubsa, gələcəyində də o qədər xoşbəxt günlər olacaqdır". Dahi şəxsiyyət hər zaman bildirirdi ki, uşaq ailənin, xalqın, dövlətin ən qiymətli sərvətidir. Bu qiymətli sərvəti fiziki və mənəvi cəhətdən sağlam, cəmiyyətə faydalı vətəndaş, Vətənə sadiq övlad kimi böyütmək çətin və məsuliyyətli olduğu qədər də şərəflidir. Əgər gələcəyimizi bugünün uşaqlarına əmanət ediriksə, onların düzgün tərbiyə olunması, hansı ideyalara qulluq etməsi hər birimizi ciddi düşündürməlidir. Axı uşaqlar dövlətin gələcəyi, dayağıdır. Bu gün ulu öndər Heydər Əliyevin bütün istiqamətlərdə, o cümlədən uşaqların hüquqlarının qorunması və qayğı ilə əhatə olunması sahəsində müəyyənləşdirdiyi dövlət siyasəti dövlət başçısı cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir. Ölkə Prezidenti cənab İlham Əliyevin 2008-ci il 22 dekabr tarixli Sərəncamı ilə 2009-cu ilin "Uşaq ili" elan edilməsi Azərbaycan dövlətinin uşaqlara sonsuz qayğısının bariz təzahürü sayılır.




Hazırda ölkəmizdə uşaq problemlərinin həlli istiqamətində onlarla dövlət proqramı və böyük layihələr həyata keçirilir. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən uşaqlara dövlət qayğısının gücləndirilməsi, uşaq problemlərinin həlli ilə bağlı vacib proqramlar reallaşdırılır. Xüsusilə, valideyn himayəsindən məhrum olan, dövlət müəssisələrində tərbiyə olunan uşaqların rifah halının yaxşılaşdırılması, hüquqlarının qorunması daim diqqətdə saxlanılır. Bəli, ölkəmizdə son dövrlər həyata keçirilən nəhəng layihələrə, islahatlara diqqət yetirdikdə, Heydər Əliyevin bütün sahələrdə inkişaf strategiyasının nə qədər fundamental bir konsepsiya olduğu aydın görünür. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi və rəşadətli ordumuzun qəhrəmanlığı ilə torpaqlarımızın işğaldan azad edilməsi isə Azərbaycan uşaqlarının həyatında yeni bir mərhələ başladıb. Artıq uşaqlarımız məcburi köçkün deyil və ailələrilə birgə öz doğma ata-baba yurdlarına qayıdırlar. Qarabağda aparılan sürətli bərpa-quruculuq azad edilmiş ərazilərimizdə xoşbəxt uşaq gülüşlərinin sədası bizi qürurlandırır.

Tam əminliklə belə qənaətə gəlirik ki, Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin təməli qoyduğu uşaq siyasəti, onun layiqli davamçısı dövlət başçısı cənab İlham Əliyev və Heydər Əilyev Fondu tərəfindən geniş üfüqlərə yol açacaq.

**Zabit XƏLİLOV,**
**"Respublika".**